

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

15 iyun 2022-ci il
Çərşənbə

1933-cü ildən çıxır
№ 23 (3586 )


# 15 İYUN - MİLLİ QURTULUŞ GÜNÜNDƏN ŞUŞA BƏYANNAMƏSİNƏ

Tarixi Qələbə ilə başa çatmış 44 günlük İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranmış yeni reallıqlar fonunda imzalanmış Şuşa Bəyannaməsi Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının sarsılmaz olduğunu bir daha dünyaya bəyan etdi. Bu sənədin məhz Şuşa şəhərində imzalanması böyük tarixi, siyasi və rəmzi məna daşıyır və işğaldan azad edilmiş torpaqların məhz Azərbaycanın əzəli tarixi ərazisi olduğunun birmənalı təsdiqidir. Eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün toxunulmazlığına böyük siyasi dəstəyin ifadəsidir.



Ulu öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” fəlsəfəsinin praktik təcəssümü olaraq Şuşada Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsinin imzalanmasının 2021-ci ilin 15 İyun – Milli Qurtuluş Günündə baş verməsi bayrama bayram qatır. Çünki Şuşa Bəyannaməsi Qurtuluşumuzun məntiqi nəticəsi və onun əbədiliyinin daha bir zəmanətidir.

Bəyannamənin mədəniyyət beşiyi olan Şuşa şəhərində imzalanması tarixi hadisədir və tarixi köklərə dayanan əlaqələr Şuşa Bəyannaməsi ilə bir daha təsdiqini tapdı. Vətən müharibəsinin başladığı ilk günlərdən Türkiyənin Azərbaycanın yanında olduğunu elan etməsi, ölkəmizə birmənalı dəstəyi bu tarixi sənədlə strateji müttəfiqlik zirvəsinə daşındı. Bəyannamə Azərbaycan və Türkiyə arasında ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki müttəfiqlik, əlaqələrin genişləndirilməsi, imkan və potensialların birləşdirilməsini nəzərdə tutur. Bu sənəd bütövlükdə Cənubi Qafqazın yeni təhlükəsizlik konsepsiyası kimi də qiymətləndirilə bilər, çünki regionda Azərbaycan və Türkiyə müttəfiqliyi prosesləri tam nəzarətdə saxlamağa, ədalətli məcraya yönəldərək inkişaf etdirməyə qadirdir. İki ölkə Cənubi Qafqazda hər zaman təhlükəsizliyi, əməkdaşlığı, sabitliyi təşviq edir, münasibətlərin Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə qalxması isə regionda sülhə, ümumi rifaha öz töhfəsini verəcək.

Prezident İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, dünyada Azərbaycan-Türkiyə qədər bir-birinə səmimi dostluq, qardaşlıq münasibəti bəsləyən digər iki dövləti tapmaq qeyri-mümkündür. Azərbaycan və Türkiyə münasibətləri digər ölkələrin bir-biri ilə əlaqə qurması və inkişaf etdirməsi üçün örnəkdir.

Tarixə nəzər salsaq görərik ki, iki qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, eyni zamanda 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiqliyi təsdiq edən Şuşa Bəyannaməsi "Bir millət - iki dövlət"in bütün sahələrdə birliyini, müttəfiqliyini göstərir. 9 fevral 1994-cü ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutan tarixi sənəd müxtəlif adlar altında olsa da gələcəkdə də əhəmiyyətini itirməyərək Azərbaycan-Türkiyə qardaşlığının, müttəfiqliyinin daim zirvədə olacağının təsdiqidir.

# DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbində buraxılış mərasimi keçirilib



İyunun 10-da Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbində 2021-2022-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə respublikanın daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Nazir müavini – daxili qoşunların komandanı, general-leytenant Şahin Məmmədov məzunların buraxılış mərasiminin Ali Hərbi Məktəbin həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdıraraq təhsil müəssisəsinin inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.

Gənc zabitlər önündə çıxış edən nazir Vilayət Eyvazov məmnunluqla bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Qoşunların döyüş hazırlığının yüksəldilməsini daim nəzarətdə saxlayıb, müasir silah və texnika ilə təminatı, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində bir çox vacib qərarlar qəbul edib. Məhz bu ali diqqətin nəticəsidir ki, Daxili Qoşunlar qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməyə qadir silahlı birləşməyə çevrilib.

*Ardı 2-ci səhifədə.*





# DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbində buraxılış mərasimi keçirilib






*Əvvəli 1-ci səhifədə.*

General-polkovnik V.Eyvazov Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbə ilə nəticələnən Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının da ön cəbhədə iştirak edərək qəhrəmanlıq və vətənpərvərlik nümunələri göstərdiyini, onların arasında Ali Hərbi Məktəbin də məzunlarının olması bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda formalaşması üçün ortaya qoyulmuş əzmkar fəaliyyətin əyani təsdiqi olduğunu vurğulayıb.

O, qələbədən sonrakı dövrdə Daxili Qoşunların şəxsi heyətinin işğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları ilə birgə xidmət etmələrini də məmnunluqla qeyd edib.

Daxili Qoşunlar üçün yüksək ixtisaslı kadrların hazırlanmasında danılmaz roluna, təmənnasız yardımlarına görə qardaş Türkiyə Respublikasının Jandarma Qüvvələri Baş Komandanlığına, hərbi mütəxəssislərinə təşəkkürünü bildirən nazir V.Eyvazov bu işdə digər ölkələrin də analoji təhsil müəssisələri ilə işgüzar əlaqələrin əhəmiyyətini vurğulayıb.

Məzunların həyatında yeni bir dövrün başladığını nəzərə çatdıran daxili işlər naziri gənc zabitləri, onların valideynlərini və yaxınlarını Ali Hərbi Məktəbi müvəffəqiyyətlə bitirmələri münasibətilə təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil ocağının rəhbərliyinə və zabit-müəllim heyətinə təşəkkürünü bildirib, fəaliyyətlərində onlara uğurlar arzulayıb.



Çıxışının sonunda daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti bundan sonra da xalqa və dövlətə sədaqətlə xidmət edəcək, qarşıya qoyulmuş tapşırıqların tam və layiqincə yerinə yetirilməsi üçün var qüvvəsi ilə çalışacaqdır.

# NÖVBƏTİ SINAQ, NÖVBƏTİ UĞUR

## *Xanım polislər yenə öz sözlərini dedilər*

Bu il də "Formula-1" üzrə Azərbaycan Qran-prisində təhlükəsizliyin təmin edilməsinə daxili işlər orqanlarının qadın əməkdaşları da cəlb edilib. Xanım həmkarlarımız yarışın keçirildiyi trekboyu giriş-çıxışlarda yoxlama-nəzarət tədbirlərində, eləcə də ictimai asayişin qorunmasında iştirak ediblər.





Qadın polislərin qrup rəhbəri, **DİN Səfərbərlik işləri və mülki müdafiə idarəsi katibliyinin rəisi, polis polkovnik-leytenantı Nailə Teliyeva** qəzetimizə bildirib ki, xidməti vəzifələrini peşəkarlıqla yerinə yetirən xanım əməkdaşların cavabdeh olduqları postlarda heç bir insident qeydə alınmayıb.

Onun sözlərinə görə, builki Qran-pridə asayişin qorunmasına 148 qadın əməkdaş cəlb olunmuşdu: "Onlar Bakı Polis Qarnizonun, Əlahiddə Çevik Polis Alayının, Daxili Qoşunların Baş İdarəsinin, Tibb İdarəsinin, Baş Mühafizə İdarəsinin, Baş Əməliyyat və Statistika İdarəsinin, Polis Akademiyasının, Nəqliyyatda Baş Polis İdarəsinin, DİN Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin əsasən, rus və ingilis dillərini bilən xanım əməkdaşlarının arasından seçilmişdilər. Yarışların keçirildiyi ərazilərdəki piyada və nəqliyyat postlarında xidmətə çıxan xanımlar yenə də nümunəvi xidmət apardılar".

Səhər təlimatından sonra postlarda xidmətə başlayan xanım həmkarlarımız gündüz və gecə olmaqla iki növbədə xidmətə çıxıblar. Onların arasında əvvəlki tədbirlərə cəlb edilmiş təcrübəli əməkdaşlarla yanaşı, xidmətə yeni qəbul olunanlar da verilən tapşırıqların öhdəsindən layiqincə gəliblər.

Qeyd edək ki, Nailə Teliyeva ölkəmizdə İslam Həmrəyliyi Oyunlarından başlayaraq keçirilən bütün beynəlxalq kütləvi tədbirlərdə qadın polislərə qrup rəhbərliyi edib. O, yarışların ilk günündən postlara təhkim olunmuş əməkdaşların növbəlilik əsasında xidmətlərinin təşkili, təhlükəsizlik qaydalarına daimi nəzarət etmək kimi vəzifələri icra edib.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

***"Asayişin keşiyində" jurnalının növbəti nömrəsi işıq üzü gördü. "Polis"in əlavəsi kimi onu ərsəyə gətirsək də yaradıcılıq imkanlarımıza güvənib bu nömrədə də müxtəlifliyi və rəngarəngliyi ilə qəlblərə yol tapacaq məqalələrlə, bədii yaradıcılıq nümunələri ilə görüşünüzə gəldik.***

***Jurnalın ilk səhifəsində yer alan "Şuşadakı Novruz tonqalı"nı işğaldan azad olunmuş torpaqlarımızda Azərbaycan əsgəri ilə çiyin-çiyinə xidmət aparan həmkarlarımızın, elə hər birimizin sevincini 30 il həsrətində olduğumuz Pənahəli xanın yurdunda – Şuşada bayram tonqalının qığılcımıyla alovlandırdıq.***




***Dünyanın 65 ölkəsindən 400-dən çox soydaşımızı bir araya gətirən Dünya Azərbaycanlılarının Zəfər Qurultayından, Vətən savaşında Müzəffər Ali Baş Komandanın "Dəmir yumruq"una dönən hərbi qulluqçularımızın fədakarlığından, zirvəyə ucalan general ömründən, polis olmaq istəyən gənclərimizin arzularından, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun şəhər və rayonlarda keçirdiyi qəbullardan, şəhid ailə üzvlərinin və Vətən müharibəsi iştirakçılarının DİO-ya xidmətə qəbulundan, əməliyyat-xidməti fəaliyyətin nəticələri ilə əlaqədar keçirilən kollegiya iclasından bəhs edən yazılar inanırıq ki, diqqətinizdən yayınmayacaq.***

# *YAZIRLAR Kİ...*

**Bakı şəhər sakini Anar Əliyev:** "Bir neçə gün öncə idarə etdiyim avtomobilimi adıma keçirmək üçün Baş Dövlət Yol Polisi İdarəsinə bilavasitə tabe olan Qeydiyyat-imtahan İdarəsinin Qaradağ ərazisində yerləşən məntəqəsinə getmişdim. Növbəmi gözlədiyim vaxt müşahidə etdiklərim mənə o qədər xoş təsir bağışladı ki, bu məktubu yazmaqla polis əməkdaşlarına öz təşəkkürümü ifadə etmək istədim. Orada xidmət aparan Məhəmməd adlı polis serjantının sanki öz doğması kimi hər bir vətəndaşla xoş rəftarından, hamını səbrlə dinləməsindən, ora gələn qazilərlə necə minnətdarlıqla danışmasından qürurlandım. DİN rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm ki, onun qarşıya qoyduğu tələblərə riayət edən, xidməti vəzifəsini layiqincə yerinə yetirən belə polis əməkdaşları var."

Yeri gəlmişkən, Baş Dövlət Yol Polisi İdarəsinə bilavasitə tabe olan Komendant Xidmətinin komandiri, polis baş leytenantı Rauf Əliyevlə əlaqə saxladıq. O bildirdi ki, Məhəmməd Bağırzadə işini sevən, verilən tapşırıqları layiqincə yerinə yetirməyə çalışan əməkdaşlardandır. O, xidməti və davranışı ilə həm əməkdaşlar, həm də vətəndaşlar arasında müsbət xarakterizə olunur, hər kəsin hörmətini qazanıb. Rauf Əliyev onu da vurğuladı ki, idarəyə gələn vətəndaşların suallarını cavablandırmaq, lazımi köməklik göstərmək, səmimi davranmaq onların vəzifə borcudur.

**Paytaxt sakini Şəbnəm Həsənova** yazır ki, Binəqədi rayonunda yaşayır. Günün istənilən vaxtı küçəyə çıxanda polis əməkdaşlarını xidmət başında olması, əmin-amanlığı qoruması onları çox sevindirir. O, həmçinin polis əməkdaşlarının xidməti və vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, asayişin təmin olunmasında, cinayətkarlıqla mübarizədə fəal iştirakına görə DİN rəhbərliyinə minnətdarlığını ifadə edir.

"Mən Azərbaycan vətəndaşı oldmaqdan qürur duyuram. Bizlər üçün yaratdığınız təhlükəsiz yaşayışa görə DİN rəhbərliyinə minnətdaram. Peşəkarlığı, mədəniyyəti, peşəsinə olan ciddiyəti, operativliyi, vətəndaşlar arasındakı inam, etibar bir daha sübut edir ki, Azərbaycan Polisi təqdirəlayiqdir. Gündən-günə gözəlləşən ölkəmizdə sizlərin sayəsində pozulan hüquqlarımız bərpa olur, təhlükəsiz, firavan yaşayırıq". **Bu fikirləri isə Təranə Payranj adlı vətəndaşımız** DİN rəhbərliyinə ünvanladığı məktubda yazıb.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# İYİRMİ BİRİNCİ ƏSRİN YENİ TARİXİNİ ONLAR YAZDI

**Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan hərbi qulluqçumuz, baş çavuş Hüseynov Fərid Fətəli oğlu 1994-cü il iyunun 23-də Cəlilabad rayonunun Bəcrəvan kəndində doğulub.** Orta məktəbi bitirdikdən sonra 2012-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində, Hərbi Dəniz Qüvvələrinin tərkibində xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2014-cü ilin yanvar ayında ehtiyata buraxılıb.

2015-ci ilin iyul ayının 18-dən etibarən o, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Qəbələdəki "N" saylı hərbi hissədə Vətən müharibəsinədək xidmət edərək, xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsində xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunda atıcı, xüsusi təyinatlı dəstədə atıcı-yazar və xüsusi həmlə qrupunun yarımqrup komandiri vəzifələrinə təyin olunub.

2020-ci ilin sentyabr ayının 27-də xidmət etdiyi hərbi hissənin xüsusi təyinatlıları qoşunların Bərdə rayonundakı "N" saylı hərbi hissəsinə göndəriliblər. Burada yerləşdikləri müddətdə ön cəbhədə döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlaşıblar. Sonra döyüş bölgəsində fəaliyyətə başlayıblar.



Qəbələ rayonunda fəaliyyət göstərən "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı kapitan Anar Mahmudov deyir ki, Fərid onun tabeliyində 2020-ci ilin may ayından xidmət edib, intizamlı, bilik və bacarıqlarını təkmilləşdirməyə səy göstərən hərbi qulluqçu olub.

Kapitan A.Mahmudov: "Dəstənin şəxsi heyətinin döyüş yolu oktyabrın 15-də Füzuli şəhəri istiqamətində başlayıb. Qoşunların Bakının Biləcəri qəsəbəsindəki "N" saylı hərbi hissəsinin xüsusi təyinatlıları ilə birlikdə bu istiqamətdə təcavüzkara qarşı iki gün vuruşduq. Füzuli şəhərində yerləşən hərbi hissədə düşmənin xeyli miqdarda müxtəlif növ silah-sursatını, o cümlədən, tank əleyhinə "Kornet" raketlərini, eləcə də hərbi əmlakını qənimət götürərək aidiyyatı üzrə təhvil verdik. Xüsusi təyinatlılarımızın həmlələri nəticəsində düşmənin atəş nöqtələri susduruldu, əlverişli mövqelər nəzarətə götürüldü. Füzuli rayonunun Seyidmahmudlu, Dədəli, Mirzəcamallı, Aybasanlı, Xocavənd rayonunun Düdükçü, Ağbulaq, Edilli kəndlərinin ərazilərində axtarış, erməni diversiya-kəşfiyyat qruplarının sızmasının qarşısının alınması, ayrı-ayrı obyektlərdə gizlənmiş düşmən hərbçilərinin zərərsizləşdirilməsi üzrə fəaliyyət zamanı Fərid daim öndə oldu, heç bir təhlükədən çəkinmədi. Oktyabrın 30-dan sonra Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin xüsusi təyinatlıları ilə birlikdə Şuşa istiqamətində irəliləmək və şəhəri azad etmək barədə döyüş tapşırığı aldıq. Bir neçə gün Şuşaya doğru Xocavənd rayonunun Hadrut qəsəbəsi, Böyük Tağlar kəndi, Xocalı rayonunun Çanaqçı, Sığnaq kəndlərindən, dağlıq-meşəlik ərazilərdən keçməklə, Kiçik Kirs zirvəsi, Laçın dəhlizi istiqamətlərində irəlilədik. Noyabrın əvvəlində Şuşa ətrafında döyüşlər zamanı ermənilərin Laçın dəhlizi ilə hərəkətinin qarşısını aldıq, bir sıra vacib mövqeləri ələ keçirdik. Daşaltı kəndini də düşməndən təmizlədik. Fərid noyabrın 7-də Şuşa yaxınlığında düşmənin artilleriyasının atəşi nəticəsində mərmi qəlpələrindən ağır yaralanaraq şəhid oldu"...



Qəbələdəki "N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində texnik, Vətən müharibəsi iştirakçısı gizir Xəzər Tahirov müharibədə qrup komandiri kimi fəaliyyət göstərib. Döyüşlər zamanı dəfələrlə Fəridin mərdliyinin şahidi olub. Füzuli rayonunun Seyidmahmudlu kəndi ətrafındakı adsız yüksəkliklər alındıqda Fəridin həmin əraziyə üçrəngli bayrağımızı sancdığını, o anda sevinc və qürur hissi yaşadıqlarını söyləyir.

Vətən müharibəsi iştirakçıları, həmin hərbi hissədə xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunda iriçaplı pulemyot yarımqrupunun komandiri baş çavuş Aşqın Əliyev və xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun yarımqrupunda atıcı-qumbaraatan çavuş Vahid Cavadzadə də şəhidin yaxın silahdaşları olublar.

18 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Fəridin döyüş meydanında hərbi əməliyyat nəticəsində partlayış və qəlpələrlə zədələnmədən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuz 11 noyabr 2020-ci ildə Bəcrəvan kəndinin qəbiristanlığında dəfn olunub. Fəridin qohumu gizir Təbriz İsayev, məktəbli yoldaşı olmuş Mirnağı Şərifov da Vətən müharibəsi şəhidləridir. Mirnağı ilə Fəridin məzarları yanaşı yerləşir.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 və 25 dekabr 2020-ci il tarixli sərəncamlarla baş çavuş F.Hüseynov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhadətindən sonra dünyaya gələn övladı Əbülfəz bizlərə əmanət qalıb.

Şəhidin qardaşı, **polis kiçik serjantı Murad Hüseynov Cəlilabad Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti bölüyündə xidmət edir.**

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# Hüquq və azadlıqların KEŞİKÇİSİYİK

Paytaxtın Nizami rayon Mərkəzi Kitabxanasında polis əməkdaşlarının iştirakı ilə 18 iyun -İnsan Hüquqları günü ilə bağlı tədbir keçirilib. Tədbirə "Uşaq Qaynar Xətt" xidmətinin nümayəndələri, kitabxananın işçiləri, Zəngilan rayon məktəbinin şagirdləri və müəllimləri qatılıb.

**Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova** çıxış edərək, dövlət tərəfindən insan hüquqlarının





qorunması sahəsində ardıcıl həyata keçirilən tədbirlərdən, hüquq və azadlıqların təmin olunması istiqamətində daxili işlər orqanlarının fəaliyyətindən danışıb. Polisin ictimai təhlükəsizliyin qarantı olmaqla, vətəndaşı hüquqazidd əməllərdən, zorakılıqdan qoruduğunu qeyd edən K.Ələkbərova insan hüquqlarının müdafiəsi sahəsində daxili işlər orqanlarının öz vəzifələrini layiqincə yerinə yetirdiyini, Azərbaycan Polisinin hüquq və azadlıqların əsl keşikçisi olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən digər iştirakçılar son illər bu sahədə aparılan islahatlara diqqət çəkiblər.

**Astara rayon Heydər Əliyev Mərkəzində** də İnsan hüquqları aylığı çərçivəsində "Ulu öndər Heydər Əliyev və insan hüquqları" mövzusunda sərgi və dəyirmi masa təşkil olunub.

Rayonun ictimaiyyət nümayəndələrinin, təhsil və mədəniyyət işçilərinin, tələbə və məktəblilərin iştirak etdiyi tədbirdə **Astara Rayon Polis Şöbəsi rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis kapitanı Ceyhun Abdulov** ölkəmizdə insan hüquq və azadlıqları ilə bağlı tarixi məqamlara toxunub. O, bildirib ki, ümummilli lider Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə ölkəmizdə insan hüquqlarının müdafiəsinə dair ilk Dövlət Proqramı təsdiq edilib. Prezident İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən, hər il iyunun 18-i respublikamızda İnsan Hüquqları Günü kimi qeyd olunur.

Daha sonra isə Ombudsmanın Cəlilabad Regional Mərkəzinin rəhbəri Ziya İsmayılov, Astara rayon Gənclər və İdman İdarəsinin rəisi Rufan Şirinov Azərbaycanda insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində görülən işlərdən, ölkəmizin qoşulduğu beynəlxalq konvensiyalardan danışıblar, bu sahədə qazanılan uğurlardan bəhs ediblər.

*"Polis"*

# Balacaların böyük arzusu...



Tədris ilinin başa çatması ilə yay tətilinə yollanan hər bir məktəblinin həyatında daha bir dövr qapandı. Daha doğrusu, yenidən sinif otaqlarına gəlmək üçün ürəklərində böyük arzularla tətilə getdilər.

Onların bəziləri öz arzularını əməkdaşımıza pıçıldayıb, deyiblər ki, böyüyüb polis olmaq istəyirlər. "Polis" qəzetində dərc edilsin deyə, yığışıb məktəbin qarşısında bir şəkil də çəkdiriblər...

Bu foto Qaradağ rayonunda yerləşən 233 nömrəli məktəbin ibtidai sinif şagirdlərinin arzularının tablosudur, əslində. Bəlkə ilk dəfə arzunun rəsmini elə bu fidanlar çəkiblər, biz də sevə-sevə dərc edirik. Baxın, qol-budaq atacaq, kökləri Vətənin qəlbinə işləyəcək yeni nəsl ağacının pöhrələnməsinə, tumurcuq balalarımıza baxın. İçində həkimi, hakimi, müəllimi, polisi, idmançısı, ən əsası, vətəndaşı olacaq parlaq gələcəyin işartısını siz də görün.

# Təhlükədən daha yaxınıq...



Bəlkə də o, həmin an orada olmasaydı, vətəndaş üzləşdiyi problemdən çıxış yolu tapmaqda çətinlik çəkərdi...

Bakı şəhər sakini Səfurə Kərimovanın dərin minnətdarlıq hissi ilə redaksiyamıza ünvanladığı məktubun qəhrəmanı **Nəsimi Rayon Mühafizə İdarəsinin növbətçi köməkçisi, polis baş serjantı Malik Rüstəmbəylidir.**

Əməkdaşımız hadisəni belə şərh edir: "Bazarlıq üçün marketə getmişdim. Bir neçə vətəndaşın həyəcan içində nəyisə müzakirə etməsi nəzərimdən yayınmadı. Yaxınlaşıb maraqlandım. Gənc bir xanım təşviş içində mühüm sənədlər, 230 manat, eləcə də balansında 5 min manat bank kartının olduğu cüzdanının oğurlandığını dedi. İlkin olaraq şübhələndiyi şəxsin əlamətlərini, bədən quruluşunu, saç düzümünü, getdiyi istiqaməti müəyyənləşdirdim. Deyilən istiqamətdə təxminən 600 metr getmişdim ki, qarşıma çıxan yarımtikilidə deyilən əlamətlərə uyğun bir xanımın gizləndiyini gördüm. Yaxınlaşıb bir-iki sual verdim. Mənim polis olduğumu başa düşən kimi qaçmağa çalışdı".

Polis baş serjantı M.Rüstəmbəyli şübhəlini aidiyyəti üzrə ərazi polis orqanına təhvil verib. Şahidlərin iştirakı ilə keçirilən baxış zamanı zərərçəkmişin cüzdanının məhz həmin xanım tərəfindən oğurlanması faktı təsdiqlənib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# İnandığına peşman oldu

**Bakı şəhər sakini Fəridə Quliyeva etibarından sui-istifadə edərək ona külli miqdarda maddi ziyan vuran Qızılgül Musayeva barəsində Binəqədi RPİ-yə şikayət edib. Ərizə əsasında İstintaq Şöbəsində CPM-nin müvafiq maddəsinə uyğun olaraq cinayət işi açılıb.**

İdarənin əməkdaşları dələduzluq əməli törətməkdə şübhəli bilinən şəxsi saxlayıblar. İstintaq zamanı müəyyən olunub ki, adıçəkilən vətəndaş zərərçəkmişlə qohumdur.

**Binəqədi RPİ İstintaq Şöbəsinin baş müstəntiqi, polis mayoru Kamran Əliyevin** sözlərinə görə, Q.Musayeva zərərkəçmişə Nərimanov rayonu Metropark Ticarət və Əyləncə Mərkəzi ilə üzbə-üz inşa edilən yeni tikilidə kredit yolu ilə mənzil alacağı adı altında vəd verərək 2018-ci ildə ilkin 15 min, daha sonra isə ayda təqribən 2 min manat almaqla, ümumilikdə 78 min manat ziyan vurub. Bir müddət keçdikdən sonra 2020-ci ilin əvvəlində Qızılgül qarşı tərəfi inandıraraq təklif edib ki, əlavə pul ödəməklə həmin binadan mənzil əvəzinə iaşə obyekti



götürsün. Sonuncu da razılaşaraq əlavə 15 min manat ödəyib. Bəlli olub ki, Qızılgülün həmin pullara qızıl alış-verişi edən tanışına verməklə qızıl gətizdirib baha satmaq niyyəti olub.

Aldadıldığını başa düşən Fəridə Quliyeva məsələnin qanuni yolla həll olunması üçün polisə müraciət edib.

"Polis"in suallarını cavablandıran **RPİ İstintaq Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Müşviq Qubadov** qeyd edib ki, təqsirləndirilən şəxslə profilaktiki söhbətlər aparılıb, barəsində qanunvericiliyin tələbləri əsasında tədbirlər görülüb. Dəymiş maddi ziyan vətəndaşa tam ödətdirilib.

Yeri gəlmişkən, Binəqədi RPİ İstintaq Şöbəsi tərəfindən bu ilin 5 ayı ərzində mülkiyyət əleyhinə olan cinayətlər üzrə vətəndaşlara dəyən 1 milyon 33 min 298 manat maddi ziyanın 712 min 633 manatı, yəni 69 faizi ödətdirilib.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Uşaqları nəzarətsiz qoymayaq!

İyunun 12-də valideynlərini itirən azyaşlının köməyinə Xətai rayonundakı "Gənclik" parkının ərazisində xidmət aparan polis əməkdaşları çatıblar. Məlum olub ki, azyaşlı parkda yaşıdlarıyla oynayan zaman valideynlərini itirib.

Bu barədə "Polis"ə məlumat verən **polis baş serjantı Rəşid Sadıqov və polis serjantı Xoşbəxt Əsgərov** belə hallarla həftənin şənbə və bazar günləri tez-tez rastlaşdıqlarını bildiriblər.





# Vətəndaş məmnunluğu üçün



**Saatlı Rayon Polis Şöbəsinin Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi Qrupunun** əməkdaşları tərəfindən rayon ərazisində yaşayan qaçqın və məcburi köçkün soydaşlarımıza şəxsiyyət vəsiqələrinin verilməsi və etibarlıq müddəti bitmiş sənədlərin yeniləri ilə dəyişdirilməsi üzrə səyyar xidmət keçirilib.

Vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə keçirilən tədbir Saatlı rayonu Əlisoltanlı kəndi ərazisindəki qaçqın və məcburi köçkün şəhərciyində baş tutub. Səyyar xidmət zamanı ümumilikdə 24 vətəndaşın sənədləri qəbul edilib. Onların arasında azyaşlılar da olub.

Tədbirdə əlil və fiziki qüsurlu insanlar da diqqətdən kənarda qalmayıb. Polis əməkdaşları həmin insanların yaşadıqları ünvanlara gedərək yeni şəxsiyyət vəsiqəsi ilə təmin etmək üçün onların müvafiq sənədlərini toplayıblar.

Sakinlər onlara göstərilən bu diqqət və qayğıya görə başda DİN rəhbərliyi olmaqla, Saatlı RPŞ-nin kollektivinə öz təşəkkürlərini bildiriblər.






# Günvurmanın simptomları və yardım

Havaların isti keçməsi günvurmaya səbəb olur. Əgər günvurmaya qarşı lazımi tədbirlər görülməzsə, bu ölümlə nəticələnə bilər.

Günvurma zamanı beyində qan dövranının kəskin pozulması nəticəsində insan komaya düşər, hətta insult keçirə bilər.

Günvurma yaşlı insanlar, ürək-damar, şəkərli diabet xəstələri, kiçik yaşlı uşaqlar, hamilə qadınlar üçün xüsusilə təhlükəlidir.

Günvurmanın əsas simptomlarını bilmək çox vacibdir!

**Bu simptomlar arasında:**

***- zəiflik***
***- başgicəllənmə***
***- güclü baş ağrısı***
***- qulaqlarda küy***
***- nəfəsalmanın tezləşməsi***
***- nəbzin tezləşməsi***
***- üşümə***
***- ürəkbulanması və qusma***
***- hərarətin 40 C və ya daha artıq yüksəlməsi***
***- ağır hallarda qıcolmalar və huşun itirilməsi.***

Bəzi hallarda bu əlamətlər insan günün altında olduqda, bəzi hallarda isə bir neçə saat sonra baş verir.

Günvurmanın ilkin əlamətlərini görən kimi zərərçəkəni kölgəyə və ya sərin otağa aparmaq, paltarlarını çıxarmaq, yarıoturaq vəziyyətdə uzatmaq lazımdır (başı bədənindən yuxarıda olmalıdır!).

Dərhal "təcili yardım" çağırın!

Zərərçəkmiş şəxsə soyuq su verin, üzünü və sinəsini soyuq su ilə silin. Alnına, boynunun yan tərəflərinə, qoltuqaltı nahiyyələrinə (iri damarlar keçən yerlər) soyuq su ilə kompresslər və ya buz qoyun.

**Günvurmanın qarşısını almaq üçün:**

***- günün altında olduqda baş örtüyündən istifadə edin***
***- kifayət qədər maye qəbul edin***
***- günün ən qızmar vaxtında (təxminən 11.00-17.00) açıq günün altında qalmayın.***

Bəzi insanlar düşünür ki, 1 illik "D" vitaminini 1 gün içərisində qazanmaq olar. Gün altında "zaqar"ın müddəti əslində 15 dəqiqəni keçməməlidir. Maksimum 20 dəqiqə olmalıdır. Ona görə də çimərliyə gün batana yaxın getmək lazımdır.

Yüngül dəri yanığı bildiyiniz hal xərçəng riskini artırır. 20 dəqiqədən artıq "zaqar" sizi qocaldır. Dərinin yaşlanmasına səbəb olur. Xüsusən üzünüzü qoruyun".

Diqqət! Çimərlikdə olduğunuz zaman heç bir halda alkoqollu içkiləri qəbul etməyin! Alkoqol orqanizmdə termorequlyasiyanı (istiliyin tənzimi) kəskin şəkildə pozduğu üçün bu istivurmanın səbəbi ola bilər.

*Natiq Abdullayev*




# Silah-sursat aşkar edilib



Nəqliyyatda Baş Polis İdarəsinin Yevlax stansiya Xətt Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş tədbirlər nəticəsində xidməti ərazidə silah-sursat aşkar edilib.

Yevlax XPŞ-nin əməkdaşları Ağdam rayonu ərazisində Bərdə-Köçərli-Təzəkənd mənzilinin yaxınlığında 1 ədəd "AK-74" markalı avtomat, 137 ədəd "5.45" çaplı patron, 35 ədəd "12.7" çaplı pulemyot patronu və 3 ədəd avtomat darağı aşkar edərək götürüblər.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

**Sabunçu RPİ 12-ci Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan Bakı şəhər sakini, əvvəllər narkotiklərlə əlaqəli cinayətə görə məhkum olunmuş Ə.Nurullayevdən "Kalaşnikov" markalı avtomat silahı, 6 ədəd patron və patron darağı götürülüb.

◆◆◆

**Nizami RPİ-nin 24-cü Polis Şöbəsinə** iyunun 6-da Bakı şəhər sakini Ə.Əliyevin bank hesabından 1080 manatın oğurlanması barədə müraciət daxil olub.




Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş A.Nəcəfi müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Sabunçu RPİ-nin 13-cü Polis Bölməsinə** Bakıxanov qəsəbəsində yerləşən tam orta məktəblərin birindən 2 ədəd noutbuk, 2 ədəd monitor və 2 ədəd lobzikin, bir idman zalından 800 manat, noutbuk, qol saatı, skaner və "DVR", inşa olunan bir evdən isə min manat dəyərində 3 ədəd "laqunda" və 2 ədəd "drelin" oğurlanması barədə müraciətlər daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluqları törətməkdə şübhəli bilinən Bakı şəhər sakini V.İsmayılov müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Yasamal RPİ 28-ci Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində müxtəlif vaxtlarda rayon ərazisində ümumilikdə 9 avtomobildən - 6 "VAZ", 1 "QAZ-21", 1 "Chevrolet" və 1 "Renault" markalı avtomobillərdən maqnitofon, akkumulyator və güzgü oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər narkotiklərlə əlaqəli cinayətə görə məhkum olunmuş H.Təvəkkülov müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Şirvan ŞPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Ş.Məmmədovun evinin həyətinə baxış zamanı oradan xaricdə istehsal edilmiş tapança, patron darağı və 14 ədəd patron aşkar edilərək götürülüb.

## STATİSTİKA

### Kriminal icmal

- İyunun 8-dən 14-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan cinayətlərdən 333-nün, eləcə də əvvəlki dövrlərdən bağlı qalan cinayətlərdən 53-nün açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 289, o cümlədən borclu şəxs qismində axtarışda olan 195 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 13 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 13 nəfər ölüb, 9 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 172, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 15 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9236
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik